# Məktəblərimizdə hərbi vətənpərvərlik dərsləri - dinamika var, bəs nəticə?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

**Gənc nəslin vətənpərvərlik tərbiyəsinin və milli mənlik şüurunun formalaşmasının ilk pillələrindən biri orta məktəblərdir. Bilirik ki, orta ümumtəhsil məktəblərində şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi ilə bağlı kifayət qədər tədbirlər həyata keçirilir. Orta məktəblərdə ayrıca hərbi hazırlıq fənni tədris olunur və bu fənnin də tədris edilməsinin böyük əhəmiyyəti var.**



Məktəblərdə hərbi vətənpərvərlik dərslərinin tədris metodikası necədir?

Eyni zamanda məktəblərdə tədris olunan hərbi dərslər gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi üçün nə qədər əhəmiyyətlidir? Əsasən də tədrisin metodikası necədir?

**"Çağırışa qədərki hazırlıq fənninin dərs saatı artırılıb"**

Tanınmış hərbi ekspert, pedaqoq İbrahim Rüstəmli "Bakı-Xəbər"ə bildirdi ki, ümumiyyətlə, orta məktəblərdə hərbi hazırlıq fənninin tədris olunması çox böyük əhəmiyyət daşıyır. O qeyd etdi ki, bu fənnin keçilməsi gənc nəslin formalaşmasında, gənclərin mənsub olduğu dövlətə, xalqa və Vətənə münasibətində əhəmiyyətli dərəcədə müəyyənedici rol oynayır. Bu fənnə hərbi hazırlıq demirik. Məktəblərdə bu fənn çağırışa qədərki hazırlıq adı altında tədris olunur. 44 günlük Vətən savaşından sonra bu fənnin tədrisinə çox ciddi əhəmiyyət verilir. Yəni söhbət nədən gedir? 44 gülük Vətən savaşından öncə çağırışa qədərki hazırlıq fənninin dərs saatları az idi, lakin qələbəmizdən sonra hər sinfdə bu fənnə daha bir saat əlavə verilib. Yəni çağırışa qədərki hazırlıq fənninin dərs saatı atrırılıb. Bu da təbii ki, gənclərin vətənpərvərlik tərbiyəsinə müsbət təsir edir"-deyə İ.Rüstəmli bildirdi.

**"Tədrisin metodikası ilə bağlı da çox ciddi irəliləyişlər əldə edilib"**

İ.Rüstəmlinin sözlərinə görə, istər Vətən müharibəsi, istərsə də lokal antiterror tədbirləri, o cümlədən Birinci Qarabağ savaşı və sair hadisələr hərb tariximizin öyrənilməsi baxımından çağırışa qədərki hazırlıq fənninin oynadığı rol əvəzsizdir. "yaxın keçmişimizə üz tutsaq görəcəyik ki, bizim hərb tariximizdə nə qədər böyük şəxsiyyətlər olub. Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, general Səlimov, Cəmşid Naxçıvanski, bir qədər irəli gəlsək general Həzi Aslanov və başqa şəxsiyyətlərin yeni yetişən gənc nəslə tanıdılmasında çağırışa qədərki hazırlıq fənni həm birbaşa, həm də dolayısı ilə körpü rolunu oynayır.

Tədrisin metodikası ilə bağlı da çox ciddi irəliləyişlər əldə edilib. Bilirsiz, heç vaxt mükəmməl dərslik, mükəmməl əsər olmur. Yəni bir müəllif öz əsərini bir neçə variantda yazır... Bu mənada çağırışa qədərki hazırlıq fənninin metodikasdı, tədrisi, fənn kitabının hazırlanması ilə bağlı daim müxtəlif yeniliklər edilir, müxtəlif arayışlar verilir. Məsələn, çağırışa qədərki hazırlıq fənnində 44 günlük Vətən savaşında Azərbaycan Silahlı Qüvvələrinin, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı Prezidnet İlham Əliyevin xidmətlərin yer alması əlbəttə yeni redaktənin məhsuludur. Bu dəyişikliklər daim həyata keçirilir. Amma ən əsası odur ki, bu gün çağırışa qədərki hazırlıq fənninin tədrisi ilə məşğul olan bir müəllim kimi ürəklə, böyük cəsarətlə, çəkinmədən deyə bilərəm ki, Elm və Təhsil Nazirlyi bu fənnin tədrisi ilə bağlı irəliyə doğru çox ciddi addımlar atıb. Yəni bu fənnin tədrisinin metodikası da çox güclüdür, fənn kitabı var, metodik vəsaitləri var və sair. Bu metodik vəsaitlərdə hərbi vətənpərvərlik tərbiyyəsinin müasir hərbi uğurlarımızla əlaqələndirilməsi, Azərbaycanın Milli Qəhrəmanlarının təbliğ olunması, eyni zamanda şəhidlərimizin gənc nəslə tanıdılması ilə bağlı böyük işlər görülüb. Yazılarımda da qeyd etmişəm, Vətən savaşında qazandığımız qələbənin böyük payı Azərbaycan gəncliyinin üzərinə düşür. Təbii ki, bu sırada Elm və Təhsil Nazirliyinin təhsil sistemində çağırışa qədərki hazırlıq fənninin tədrisi ilə bağlı dayanmadan aparılan islahatlar böyük əhəmiyyət kəsb edir. Yəni islahatlar təkcə tədris fənni, onun metodik vəsaitləri, praktik təcrübələri ilə yekunlaşmır, nazirliyin təşəbbüsü ilə çağırışa qədərki hazırlıq fənnini tədris edən müəllimlərin məvacibi də nəzərəçarpacaq dərəcədə, demək olar ki, üç-dörd dəfə artırılıb. Əlbəttə, müharibədn çıxmış bir dövlətik, şəhidlərimiz, qazilərimiz var, sağlamlığı bərpa olunmalı insanlarımız var. Müharibə ağır kampaniyadır. Mən elə gəlir ki, bir müddətdən sonra çağırışa qədərki hazırlıq fənninin tədrisi, fənn müəllimlərinin maddi-rifah halının yaxşılaşdırılması istiqamətində də müəyyən addımlar atılacaq. Amma bütövlükdə götürdükdə mən 7 ildir bu fənni tədris edirəm. Böyük əminliklə deyə bilərəm ki, Elm və Təhsil Nazirliyi birinci, bu fənnin mükəmməl şəkildə tədrisi, mükəmməl şəkildə tədris üçün dərs vəsaitlərinin, metodik vəsaitlərin çap olunması, çağırışa qədərki hazırlıq fənnin prkatikliyinin təmin olunması istiqamətində də çox böyük addımlar atıb. Yerləşdiyi inzibati binasından aslı olaraq, əgər məktəblərin binası imkan verirsə bütün şəhər məktəblərinə silahlar verilib. Təbii ki, bunlar tədris silahlarıdır. Bütün məktəblər tirlərlə- atış otaqları ilə təmin edilib. Eyni zamanda praktik tədris üçün məktəblərə minaların, digər döyüş silah sürsatlarının maketləri, fiqurları verilib. Bunlar silah sursatların daxili qurluşunu özündə əks etdirən vəsaitlərdir, maketlərdir. Bunlar hamısı müsbət hallardır. Sağlıq olsun, inanıram ki, gələcəkdə daha böyük adımlar atılacaq. Ümumiyyətlə, götürdükdə bu fənnin tədrisi, təbliği əlbəttə, gənclərimizin həyatında mühüm rol oynayır"-deyə İ.Rüstəmli bildirdi.

İ.Rüstəmli qeyd etdi ki, qələbənin qazanılmasında çox böyük payı olan Azərbaycan gənclərinin də böyük əksəriyyəti yaxın keçmişdə parta arxasından qalxıb orduya gedən gənclər idilər.

Bütün bu məqamların çağırışa qədərki hazırlıq fənnin nə qədər böyük əhəmət daşıdığının göstəricisi olduğunu deyən İ.Rüstəmli vurğuladı ki, bu gün sözügedən fənnin tədrisi ilə bağlı keçən beş-altı il ərzində çox böyük işlər görülüb, irəliy doğru əhəmiyyətli dərəcədə mühüm addımlar atılıb. O, hesab edir ki, bu fənnin tədrisi ona göstərilən diqqətin etimadını doğruldur.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**